# 28 May - Müstəqillik Günü və Azərbaycanda “Konstitusiya və Suverenlik İli” münasibətilə Türkiyədə silsilə tədbirlər keçirilib

**2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası məqsədilə Türkiyənin İğdır, Qars və İstanbul şəhərlərində "Konstitusiya və Suverenlik İli" çərçivəsində 28 May - Müstəqillik Günü münasibətilə konsert proqramı təşkil olunub.**

## İğdır

İğdırda keçirilən konsert Diasporla İş üzrə Dövlət Komitəsinin, İğdır valiliyinin, Azərbaycanın Qarsdakı Baş Konsulluğunun, Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) və İğdır Azərbaycan Evinin birgə təşkilatçılığı ilə keçirilib.

Tədbirin rəsmi hissəsində çıxış edən Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev konsert proqramları-



nın Şərqi Anadolu bölgəsində keçirilməsinin əhəmiyyətindən, Türkiyə-Azərbaycan münasibətlərinin daha da dərinləşməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə səylərindən söhbət açıb, tarixi qardaşlıq əlaqələrindən bəhs edib.

Tədbirdə çıxış edən Azərbaycanın Qarsdakı Baş konsulu Zamin Əliyev 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində əldə olunan tarixi Zəfər və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edildiyini, işğala son qoyulduğunu qeyd edib.



Konsert proqramında Azərbaycanın incəsənət ustaları və İğdır valiliyinin rəqs kollektivi iştirak edib. Xalq artisti Əlixan Səmədov balabanda sevilən xalq və bəstəkar mahnılarını, bəstələdiyi musiqiləri ifa edib. Tanınmış tarzən Rövşən Qurbanovun rəhbərlik etdiyi muğam qrupunun müşayiəti ilə tanınmış xanəndə, Azərbaycan Dövlət Filarmoniyasının solisti Rəvanə Qurbanovanın ifasında Azərbaycan muğamının könül oxşayan nümunələri, xalq və bəstəkar mahnıları səslənib. Azərbaycan və Türkiyədə məşhur olan "Xudayar təsnifi" və "Çırpınırdı Qara dəniz" mahnısı alqışlarla qarşılanıb.

Konsert proqramında Bakı Milli Geyim Evinin direktoru, modelyer Könül Vəlibəylinin kolleksiyasından Azərbaycan milli geyimləri nümayiş olunub. Proqramın aparıcısı, İstanbul Universitetinin doktorantı, TRT TÜRKÜ radiosunda yayımlanan "Azərbaycan Rüzgarı" proqramının müəllifi və aparıcısı Səidə Ömər Azərbaycan şairlərinin şeirlərini ifa edib. Xalq şairi Bəxtiyar Vahabzadənin "Azərbaycan-Türkiyə" şeiri tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

## Qars

Növbəti konsert proqramı Qars Şəhər Mədəniyyət və Turizm İdarəsinin konsert zalında baş tutub.



Konsertdə Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, ölkəmizin Qarsdakı Baş konsulu Zamin Əliyev, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasından olan millət vəkili Adem Çalkın, Qars Bələdiyyəsinin rəhbəri Ötükən Senger və başqaları iştirak ediblər.

"Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş konsertdə milli Azərbaycan geyimləri nümayiş olunub. Milli geyimlərin nümayişi Türkiyənin



şərq vilayətinin yüzlərlə sakininin böyük marağına səbəb olub.

Tədbir iştirakçıları Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq əlaqələrinin sarsılmaz olduğunu vurğulayaraq, ölkəmizin tarixi və mədəniyyətinə həsr olunmuş tədbirlərin davam etdiriləcəyinə ümidvar olduqlarını bildiriblər.

## İstanbul

İstanbulun Halkalı Hayha Kemal Beyatlı Gösteri Mərkəzində keçirilən konsert proqramı Azərbaycan Diasporuna Dəstək Fondu və Azərbaycan-Türkiyə Dərnəkləri Federasiyasının (TADEF) təşkilatçılığı, İstanbulun İFA idman klubunun dəstəyi ilə baş tutub.

Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayan tədbirdə əvvəl Azərbaycan diasporunun fəaliyyəti haqqında videoçarx nümayiş etdirilib.

Tədbirin rəsmi hissəsində çıxış edən TADEF-in rəhbəri Ədalət Turan, Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım və digərləri Türkiyə-Azərbaycan qardaşlığı, Qarabağ Zəfəri və bu Qələbənin



Türk dünyası üçün əhəmiyyətindən danışıblar.

Qeyd olunub ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ilə itirilmiş torpaqlarını yenidən geri qaytarıb və bu Zəfər bütün Türk dünyasının əsl bayramına çevrilib. Bu gün Türkiyə və Azərbaycan xalqları dünyada misli olmayan birliyə, bir millət olaraq iki dövlətə sahibdirlər. Hər iki ölkə



birlikdə nəyə qadir olduğunu bütün dünyaya sübut edib. Azərbaycanda elan edilən "Konstitusiya və Suverenlik İli" bu il dünyanın bütün ölkələrində qeyd ediləcək.

İstanbulun Küçükcekmece rayonunun kaymakamı Mustafa Antepli̇oğlu isə çıxışında müstəqilliyin sadəcə bir torpağa deyil, dilinə, millətinə, dəyərlərinə sahib çıxmaq olduğunu vurğulayıb: "Azərbaycan xalqı daim bu dəyərləri uğrunda mübarizə aparıb. Qarabağ Zəfəri sadəcə bir Qələbə deyil, qürur, birlik məsələsi idi. Zəfərə gedən bu yolda Azərbaycanın yanında olması isə Türkiyə üçün bir qürur mənbəyidir. Bu gün liderlərimizin rəhbərliyi altında hər sahə üzrə daha da inkişaf edən əlaqələrimiz sadəcə xalqlarımızın deyil, bütün dünyanın rifahına xidmət edir".

Konsertdə müğənnilər İradə İbrahimova, Günel Zeynalova (Azəri qızı Günel), Əməkdar artist Rəvanə Qurbanova, eləcə də Azərbaycanın Xalq artisti, balaban ifaçısı Əlixan Səmədov, tarzənlər Rövşən Qurbanov və Pərviz Musayev, kamançada Ceyhun Muradov və nağarada Səyyar Teymurovun ifalarında Azərbaycan və Türkiyə musiqiləri ifa edilib. Silsilə tədbirlərin davamı İzmir şəhərində baş tutub.

Qeyd edək ki, mayın 30-da İstanbulda Diasporla İş üzrə Dövlət Komitəsi, TADEF və İstanbulun Yeditepe Universitetinin təşkilatçılığı ilə bu ali təhsil müəssisəsində "Konstitusiya - Suverenlik - Ərazi bütövlüyü" mövzusunda Azərbaycan-Türkiyə Müqayisəli Hüquq Simpoziumu keçiriləcək.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**